

**Müsahibimiz Niyazi adına Beyləqan Rayon Uşaq Musiqi Məktəbinin direktoru Müşfiq Quliyevdir. Məlumat üçün bildirək ki, o, S.Hacıbəyov adına Sumqayıt musiqi texnikumunu bitirib. Sonralar ali təhsil də alıb. İşini ürəkdən sevir. Vəzifəsinə məsuliyyətlə yanaşır.**

# Tədbirlərə fəal qoşuluruq

Kollektivin fəaliyyətilə yaxından tanış olmazdan öncə Müşfiq müəllimlə sinif otaqlarını gəzdik, dərslərin gedişi ilə maraqlandıq. Dəhliz boyu divarlara vurulmuş əyani vəsaitlərlə tanış olduq.

- Əmək fəaliyyətinə 1985-ci ildə bu məktəbdə tar müəllimi kimi başlamışam, - deyə M.Quliyev söhbətinə davam edir. Ailəmiz musiqiçilər ailəsidir. 2006-cı ildən uşaq musiqi məktəbinin direktoruyam.

Məktəbimizdə 302 nəfər şagird oxuyur. Onların pianino, tar, nəzəriyyə, səs və s. ixtisasları üzrə təlim-tərbiyəsi ilə 59 nəfər müəllim məşğul olur. Müqayisə üçün qeyd edim ki, 1968-ci ildə məktəb yaranarkən burada 60 nəfər şagird oxuyub. Cəmi 2 nəfər müəllim olub.

Məktəbimiz rayonun bütün mədəni tədbirlərində yaxından iştirak edir, rayon və respublika miqyaslı müsabiqələrə fəal qoşulur. Maddi-texniki bazanın möhkəmləndirilməsi, məktəbin musiqi aləti və müvafiq əyani və texniki vəsaitlə təmin edilməsi məqsədilə lazımi işlər görülür.

Təbii ki, uğur qazanmaq üçün bunlar azdır. Odur ki, biz gündəlik fəaliyyətimizdə nazirliyimizin və rayon icra hakimiyyətinin qərar və göstərişlərini əldə rəhbər tutur, uşaqlarda musiqi zövqü aşılamaq məqsədilə imkanlarımızdan maksimum dərəcədə yararlanmağa çalışırıq...

Lalə Hacıyeva,
*zona müxbirimiz.*